

■ Nigar Pirimova
*teatrşünas*

# “Oda”da Festival başa çatdı

**“Oda” Teatrında beş gün davam edən festival uğurla başa çatdı. Düzdür, proqramda bəzi dəyişikliklər də oldu. Belə ki, Gürcüstan Dövlət Pantomim Teatrının çıxışı baş tutmadı. Gürcüstanda keçirilən tədbirlə əlaqədar teatrın Bakıya gəlməsi son anda təxirə salındı. Lakin onların gəlməməsi proqramı boş qoymadı. Gürcü Teatrının çıxışı üçün nəzərdə tutulmuş iki gün ərzində həm konsert, həm də özümüzün Pantomim Teatrının “Oda” Teatrı ilə birgə tamaşası oldu.**



## “ARZULAR BAĞINDA”

adlanan ilk tamaşa rejissor İmam Həsənovun quruluşunda, iki aktyorun (İlqar Cahangir və Rauf Şahsuvarov) ifasında göstərildi. İki insanın öldüyü günə qədər qurduğu xəyallar, bəzən həmin xəyalları hətta həqiqətən yaşayırmışlar kimi hiss etmələri, sadəcə bir otaqda baş verirdi. Və bu otaq xəstəxana otağı idi. Daha dəqiq desək dəlixana otağı. İki ruhi xəstə bir gün xəyallarında “Arzular bağı”na düşürlər. Aşiq olurlar, evlənirlər, ailə sahibi olurlar, xoşbəxt həyat sürürlər və...və yaşlanıb son günlərini yaşayırlar. Məhz ömürləri bu otağın divarları arasında belə keçir. Xəyalən dəlixanadan qaçıb, canlarını həkimlərdən qurtaran iki dəli yalnız qaranlıqdan və yalnızlıqdan qorxurlar. Bəzən otaqlarının işıqları söndürüldükdə qışqırıb bir küncə qısılırlar, ancaq yanan işıq onların həyatına yeni bir günəş kimi doğur, “Arzular bağı”na aparır. Lakin bu qədər ağır həyatın sonunda dəlilərdən biri dözməyib həqiqətən də ölür. İndi yalnız qalan dəli darıxacaq.., təklikdən qışqıracaq.., hər qaranlıq olduğunda bir küncdə büzüşüb qalacaq... və hər işıq yandığında yeni “həyat” yaşayacaq... bəlkə də...

## “TARBAND”

Festivalın növbəti günü (daha dəqiq desək 17 iyul saat 20:00) teatrın səhnəsində “Tarband” adlı etnocaz konsert gələn tamaşaçılara zövq dolu anlar yaşatdı. Tarda Vüsal Tağızadə, fortepianoda isə Nicat Məmmədli bir-birindən gözəl ifaları ilə caz kompozisiyaları yaratdılar. Kompozisiyaya “Yuxu” filmindən “Gilavar”, xalq mahnısı “Qara tellər”, “Gül açdı”, “Kor ərəbin mahnısı”, “Uşaqlığın son gecəsi” filmindən Polad Bülbüloğlunun “Gəl ey səhər”, “Take five mix” və sair musiqilər daxil edilmişdi.



## FTK

İyulun 18-də “Oda” teatrında yenə də konsert oldu. Bu konsertdə fortepiano (Nicat Məmmədli), tar (Vüsal Tağı-zadə), kamança (Şəbnəm Abdullazadə) ifaları gələn seyrçilərə yenə də xoş ovqat dolu unudulmaz anlar yaşatdı. Əlbəttə ki, repertuarda da fərqli musiqilər səsləndi. Tamaşaçılar həm xalq, həm də bəstəkar musiqilərini - “Rekviem” (Çingiz Mustafayevə həsr olunmuş, bəstəkarı Rasim Müzəffərli), “Sarı Gəlin”, “Dədə Qorqud” bədii filmindən “İncəbellim” (bəstəkar Emin Sabitoğlu), “Qal sənə qurban” (Mikayıl Müşviqin sözlərinə yazılmış), “Ay işığında” və başqaları böyük şövqlə dinlədilər.





## “O, DA”

Və bağlanış günü... Pantomim teatrından dəvət olunmuş mim ustası Bəhruz Vaqifoğlunun və “Oda” teatrının aktyorlarının (Şəbnəm Abdullazadə, Elmin Bədəlov, Aynur Zərrintac, Elso Furtado, Nihat Qulamzadə) ifasında tamaşaçılar “O, da” klounada tamaşasına baxdılar. Tamaşada bir insanın yaşayışı əks olunurdu. Sanki bütün dünyanın dərdini çiyinlərində daşıyan şəxs qəfildən qapıdan, pəncərədən otağa doluşan klounların əhatəsinə düşür. Həmin klounlar isə onun bu halını anlaya bilməsələr də sonda çarəsini çox sadə bir şəkildə tapırlar. Həmin insanın (Bəhruz Vaqifoğlu) burnuna özlərində olan kloun burnu taxırlar. Bunu edər-etməz artıq hər şey dəyişir, bayaqdan ağlayan, kimsəsiz insan indi sevinir, klounlarla əylənir, hətta özü başqasına lağ edir, onun qıraqdan necə gülünc göründüyünə gülür. Lakin hər vəziyyətdə yenə də tək qalır. Yeni tanış olduğu qız da onu aldadıb sonda başqası ilə gedir. Bu yükü o çəkməlidir. O, “burnunu” çıxarar-çıxarmaz yenə əvvəlki bədbəxt, yalnız, kimsəsiz birinə çevrilir. Və tamaşanın sonunda Bəhruz Vaqifoğlu cəmi beş dəqiqə ərzində sözləri Vahid Əzizə, musiqisi Elza Seyidcahana məxsus “Mən aktyoram” mahnısının sədaları altında hər tip insanı pantomim hərəkətlərlə göstərir, “dondan dona girir, sevilib sevir, milyon dəfə həyata gəlib, milyon dəfə olür”.

Onu da qeyd etmək istəyirəm ki, bu tamaşa məhz festival üçün hazırlanmışdı və bir dəfə göstərildi.

Festivalın sonunda gələn hər kəsə təşəkkürünü bildirən “Oda” teatrının təmsilçisi onu da qeyd etdi ki, nəhayət çoxdan gözlənilən 18 + klounada tamaşasının bu həftə (24, 25, 26 iyul tarixlərində) premyerası baş tutacaq. Rollarda Elmin Bədəlov və fransız aktrisası Elso Furtado oynayacaq.



